

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 222 (20.876)

*27 noyabr 2013-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Fransanın xarici ticarət naziri, ikitərəfli iqtisadi əməkdaşlıq komissiyasının həmsədri xanım Nikol Brikin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Azərbaycan ilə Fransa arasında iqtisadi əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı əməkdaşlığın nəticələrinin yüksək səviyyədə olduğunu dedi. Prezident İlham Əliyev Fransa şirkətlərinin ölkəmizdəki fəaliyyətinin genişlənməsinin önəmini qeyd etdi. İkitərəfli iqtisadi əməkdaşlıq komissiyasının iclasına toxunan dövlətimizin başçısı iclasda müzakirə olunacaq məsələlərin ölkələrimiz arasında iqtisadi əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Fransanın yeni hökumətinin ilk naziri kimi Azərbaycana səfər etdiyini vurğulayan xanım Nikol Brik strateji baxımdan xüsusi əhəmiyyətə malik olan Azərbaycanda Fransa şirkətlərinin fəaliyyətinin daha da genişləndirilməsində ölkəsinin maraqlı olduğunu dedi.

Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulandı, yeni sahələrin müəyyənləşdirilməsinin əhəmiyyəti qeyd olundu, əlaqələrimizin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Naxçıvan şəhərinin Əliabad qəsəbəsində 16 nömrəli tam orta məktəbin binası istifadəyə verilmişdir



Təhsil xalqın intellektual potensialını formalaşdıran və elmi səviyyəsini yüksəldən mühüm sosial sahədir. Hər bir ölkənin inkişafı, ilk növbədə, qabaqcıl texnologiyalara əsaslanan təhsil sistemi ilə ölçülür. Çünki təhsil sahəsində əldə olunan nailiyyətlərin iqtisadi amilə çevrilməsi sosial-iqtisadi inkişafın təmin edilməsində əsas məsələdir. Son illər muxtar respublikada təhsilin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, yeni məktəb binaları tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmiş, təhsil infrastrukturu yenilənmişdir.

Noyabrın 26-da Naxçıvan şəhərinin Əliabad qəsəbəsində 16 nömrəli tam orta məktəbin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış mərasimində iştirak etmişdir.

Tədbirdə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov demişdir ki, bu gün muxtar respublikamızda təhsilin inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Naxçıvan şəhərində təhsil ocaqları müasir tələblər səviyyəsində qurulmuş, yeni məktəb binaları tikilmişdir. Son illər Naxçıvan şəhərində 14 məktəb binası istifadəyə verilmişdir. Hazırda isə 1 məktəb binasında tikinti işləri davam etdirilir. Tikilən və ya əsaslı şəkildə yenidən qurulan məktəb binalarında müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi təhsilin keyfiyyətinin yüksəldilməsinə səbəb olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: "Ölkəmizdə təhsilin inkişafına hərtərəfli dövlət qayğısı göstərilir, bu sahənin maddi-texniki bazası gücləndirilir. Yeni məktəb binaları tikilir, tədrisin müasir tələblər səviyyəsində qurulması üçün lazımı şərait yaradılır. Görülən işlərin davamı kimi Əliabad qəsəbəsində 16 nömrəli tam orta məktəbin binası da müasir tələblər səviyyəsində yenidən qurularaq istifadəyə verilmişdir".

Ali Məclisin Sədri bu münasibətlə kollektivi təbrik etmiş və demişdir: "Hər bir ölkənin gələcək inkişafı məktəblərdən asılıdır. Ona görə ki, bu gün məktəblərdə yetişdirilən gənc nəsil dövlətin gələcək inkişafını müəyyən edəcəkdir. Ümummilli liderimiz Heydər Əliyev bu amili yüksək qiymətləndirərək deyirdi: ***"Məktəbin ən əsas vəzifəsi xalqımıza və ölkəmizə dəyərli vətəndaşlar hazırlamaqdır".***

"Məktəbin qarşısında duran əsas vəzifələrdən birincisi təhsilli gənclər hazırlamaqdırsa, ikincisi isə ölkəmiz və xalqımız üçün əsl vətəndaş yetişdirməkdir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, ölkəmizdə məktəb işinə, gənclərin hərtərəfli hazırlanmasına xüsusi diqqət yetirilir. Çünki hər bir vətəndaş dövlətin gələcəyi üçün cavabdehlik daşımalıdır. Azərbaycan müstəqil dövlət kimi dünya ölkələri içərisində öz layiqli yerini tutmuşdur. Bu yeri daha da möhkəmləndirmək, ölkəmizi daha da inkişaf etdirmək üçün isə təhsilli və vətənpərvər gənclər lazımdır. Ona görə də məktəbdə təhsil alan hər bir gənc hərtərəfli biliyə sahib olmalı, müəllim tələbkarlığı və şagird çalışqanlığı artırılmalı, təhsilli və intellektli gənclər yetişdirilməlidir.

Pedaqoji kollektivin fəaliyyətini yüksək qiymətləndirən Ali Məclisin Sədri demişdir ki, 16 nömrəli tam orta məktəbdə qazanılan nailiyyətlər tələbkarlığın, işə məsuliyyətlə yanaşmanın və müəllim-şagird münasibətlərinin düzgün qurulmasının nəticəsidir. Ötən tədris ilində məktəbin məzunlarının ali və orta ixtisas məktəblərinə qəbul olunması, tələbə adını qazanan 23 məzundan 5-nin 500-700 intervalında yüksək bal toplaması məktəbin nailiyyətidir. Ali Məclisin Sədri qazanılan uğurlara görə məktəbin kollektivinə təşəkkürünü bildirmiş, onlara tədrisdə uğurlar arzulamışdır.

Açılışı bildirən lent kəsildikdən sonra məktəb binasına baxış olmuşdur.

Məlumat verilmişdir ki, 846 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarətdir. Binada 47 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 3 kompüter otağı, kitabxana, idman zalı və bufet vardır.

Muxtar respublikanın orta məktəb kitabxanalarının bədii və elmi ədəbiyyatlarla təchiz olunması şagirdlərin mütaliə imkanlarını xeyli artırmışdır. Bu günə qədər muxtar respublikanın ümumtəhsil məktəblərinə 1 milyon 700 mindən artıq dərslik, 620 min 117 ədəd bədii ədəbiyyat verilmişdir. 16 nömrəli məktəbin kitabxanasında 12 min 490 kitab vardır. Kitabxanaya bir ədəd kompüter qoyulmuş, elektron kataloq yaradılmışdır.

Ali Məclisin Sədri məktəbə ilk dəfə qədəm qoyan birinci sinif şagirdlərinin dərs prosesi ilə maraqlanmışdır. Bildirilmişdir ki, 2013-2014-cü tədris ilində məktəbdə birinci sinfə 58 şagird qəbul olunmuşdur.





Son illər məktəblərin informasiya-kommunikasiya texnologiyaları ilə təminatı proqramına əsasən, təhsil ocaqlarının kompüterləşdirilməsi sahəsində həyata keçirilən tədbirlər daha intensiv xarakter almış, muxtar respublikanın ümumtəhsil məktəblərində 3267 kompüter dəsti və 500-dən artıq elektron lövhə quraşdırılmışdır. Məktəbin kompüter otaqlarında da internetə çıxışı olan 57 kompüter dəsti quraşdırılmış, 4 elektron lövhəli sinif yaradılmışdır.

Hərbi kabinədə yaradılan şərait dərslərin yüksək səviyyədə tədrisinə, şagirdlər arasında hərb sənətinə marağın artmasına imkan verəcəkdir.

*Ardı 2-ci səhifədə*

Məktəbin fizika, kimya və biologiya laboratoriyalarında da ən müasir sınaq-təcrübə avadanlıqları quraşdırılmış, əyani vəsaitlər qoyulmuşdur.

Təhsil ocaqlarında idman dərslərinin yüksək səviyyədə tədrisi şagirdlərin sağlam böyüməsi ilə yanaşı, həm də gənc idmançıların yetişdirilməsində mühüm əhəmiyyətə malikdir. 16 nömrəli tam orta məktəbdə də idman dərslərinin günün tələbləri səviyyəsində tədrisi üçün lazımi şərait yaradılmış, müasir idman zalı, futbol meydançası və açıq idman qurğuları istifadəyə verilmişdir.

Ali Məclisin Sədri müəllimlərlə söhbət zamanı demişdir ki, müasir məktəb binalarının tikilməsi təhsilin inkişafında başlıca amildir. Şagirdlərin hərtərəfli biliklərlə təmin edilməsi, milli dəyərlərə və dünyagörüşə malik olan vətənpərvər gəncliyin yetişdirilməsi pedaqoji kollektivin qarşısında duran əsas vəzifələrdir. Məktəb binasında yaradılan şərait bu vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verəcəkdir.

Məktəbin müəllimləri yaradılan şəraitə görə minnətdarlıq etmiş və bundan sonra daha səylə çalışacaqlarını bildirmişlər.

Məktəbin həyətində geniş abadlıq işləri aparılmış, meyvə bağı salınmış, işıqlandırma sistemi quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



# İqtisadi inkişafın yüksəliş mərhələsi

***Azərbaycan Respublikasında sənayenin sahə və ərazi strukturunun təkmilləşdirilməsi məsələləri 1941-1945-ci illər müharibəsindən sonrakı illərdə dövlət qarşısında dayanan ən mühüm iqtisadi problem olaraq öz həllini gözləyirdi. Lakin etiraf edilməlidir ki, dahi rəhbər Heydər Əliyevin hakimiyyətə gəldiyi 1969-cu ilə qədər bu sahədə nəinki əsaslı, hətta nəzərəçarpacaq dəyişiklik belə baş verməmişdir.***

Müharibəyə qədər və müharibədən sonrakı illərdə də Bakı-Sumqayıt iqtisadi rayonunda neft sənayesinin inkişafına ittifaq dövlətinin mənafeyinə uyğun olaraq xüsusi diqqət yetirilməsi, ayrılan kapital qoyuluşlarının neft sənayesinin və onunla əlaqədar digər sahələrin inkişafına yönəldilməsi respublikanın qalan bütün iqtisadi rayonlarında məhsuldar qüvvələrin inkişafını son dərəcə zəiflətmişdi. Ötən əsrin 70-ci illərində respublika əhalisinin 24 faizini, ərazisinin 8 faizini təşkil edən Bakı-Sumqayıt iqtisadi rayonu 1970-ci ildə ölkədə istehsal edilən ümumi sənaye məhsulunun 70 faizini verirdi. Yerdəqalan 9 iqtisadi rayonun payına sənaye istehsalının 30 faizi düşürdü. Naxçıvan Muxtar Respublikası Azərbaycanda istehsal olunan ümumi sənaye məhsulunun həmin ildə yalnız 1,2 faizini verirdi.

Ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərinin əvvəllərində sənaye və kənd təsərrüfatının ərazi və sahə quruluşunun təkmilləşdirilməsi ilə əlaqədar qərarlar qəbul etmişdir. Qətiyyətlə demək olar ki, qısa müddətdə bu qərarlardan irəli gələn vəzifələrin həyata keçirilməsi nəticəsində istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafında əsaslı dəyişikliklər baş vermişdir. Bu dəyişikliyin əsası ondan ibarət idi ki, sənaye və kənd təsərrüfatının ərazi və sahə quruluşunun təkmilləşdirilməsinə dövlət səviyyəsində yenidən baxılmış, yeni tikiləcək sənaye və kənd təsərrüfatı müəssisələrinin Bakı-Sumqayıt iqtisadi rayonu istisna olunmaqla, iqtisadi inkişaf səviyyəsi aşağı olan respublikanın bütün iqtisadi rayonlarında yaradılmasına başlanılmışdır. Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə (1969-1982-ci illər ərzində) 1200-dən artıq sənaye və kənd təsərrüfatı müəssisəsi yaradılmışdır ki, bu müəssisələrin 80 faizdən çoxu ölkənin iqtisadi inkişaf səviyyəsi zəif olan regionlarında istifadəyə verilmişdir.

Məhz ölkə iqtisadiyyatının inkişafında yeni mərhələnin başlanması sovetlər dönəmində ictimai əmək məhsuldarlığı göstəricisinə görə müttəfiq respublikalar arasında Azərbaycanın 12-ci yerdən 2-ci yerə yüksəlməsi ilə nəticələnmişdir.

Həmin dövrdə Naxçıvanda da yeni sənaye müəssisələri yaradılmışdır. Bu müəssisələrə misal olaraq, Naxçıvan şəhərində Xalça Kombinatını, Alüminiumqablar Zavodunu, Alt Trikotaj Fabrikini, Şüşəqablar Zavodunu, Evtikmə Kombinatını, Dəmir-Beton Hissələri Zavodunu, Yağ-Pendir Zavodunu, Şərabçılıq Zavodunu göstərmək olar.

Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş regionlarda məhsuldar qüvvələrin ərazi və sahə quruluşunun təkmilləşdirilməsi siyasəti müasir dövrümüzdə ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl olaraq uğurla davam etdirilir. Məlum olduğu kimi, məhsuldar qüvvələrin iqtisadi rayonlarda gələcək inkişafı 2 böyük amilə əsaslanır. Birinci, müasir şəraitdə bütün iqtisadi rayonlarda təbii resurslardan kompleks istifadə edilməsi, bu resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi; ikinci, regionların torpaq, iqlim xüsusiyyətinə uyğun olaraq kənd təsərrüfatı istehsalının ixtisaslaşması və təmərküzləşməsi məsələlərinin elmi prinsiplərlə iqtisadi cəhətdən düzgün əsaslandırılmasıdır.

Muxtar respublikamızda zəngin təbii ehtiyatlar – molibden, polimetal filizlər, daşduz, dolomit, mərmər, tikinti materialları yataqları mövcuddur. Eyni zamanda Naxçıvanda "Badamlı", "Sirab" və bu kimi 200-dən artıq mineral bulaqlar vardır. Azərbaycanda mineral su ehtiyatının 60 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür.

Naxçıvan Muxtar Respublikası bu gün çoxşaxəli sənaye və aqrar-sənaye regionudur. Sənayenin ümumi strukturunda kənd təsərrüfatı məhsullarının və faydalı qazıntı yataqlarının hasilatı və emalı xüsusi yer tutur. Bununla belə, muxtar respublikada əhalinin tələbatı ilə əlaqədar yeyinti, yüngül, mebel, tikinti materialları kimi sənaye məhsullarının istehsalı da geniş çeşiddə həyata keçirilir. Yerli tələbatı ödəyən sənaye sahələrinin inkişaf səviyyəsinə görə Naxçıvan Muxtar Respublikası Azərbaycanın digər iqtisadi rayonları ilə müqayisədə ilkin yerlərdən birini tutur. Muxtar respublikada iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin müasir inkişaf səviyyəsinin təhlili göstərir ki, regionda sənaye kompleksləri çoxsahəli struktura malikdir. Bu komplekslərin formalaşması son 10 ildə daha sürətlə həyata keçirilmişdir. Məsələn, maşınqayırma və tikinti materialları kompleksində Naxçıvan Avtomobil Zavodunun və Sement Zavodunun yaradılması nəinki bu komplekslərin formalaşmasını başa çatdırmış, həm də Naxçıvanın bu sahələr üzrə iqtisadi inkişafda yerini müəyyən etmişdir. Böyük fərəh hissi ilə qeyd edilməlidir ki, 70 illik Sovet dövründə həyata keçirilməsi mümkün olmayan iqtisadi layihələr son 18 ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə böyük müvəffəqiyyətlə həyata keçirilmişdir.

İqtisadi inkişafda müşahidə olunan böyük artım meyilləri mövcud istehsal sahələrinin fəaliyyətinin bərpa edilməsi ilə yanaşı, yeni istehsal sahələrinin istifadəyə verilməsi nəticəsində də mümkün olmuşdur. Muxtar respublikada azad sahibkarlığın, xüsusi mülkiyyətin və kiçik biznesin inkişafı üçün yaradılan əlverişli şəraitin nəticəsi olaraq, Ümumi Daxili Məhsulda özəl bölmənin payı artaraq 87 faizə çatmışdır.

Sürətli və səmərəli inkişafa rəvac verən iqtisadi siyasət muxtar respublikada tarazlı, sabit və davamlı inkişaf perspektivi üçün başlıca amil olmuşdur.

Onu da qeyd etmək lazımdır ki, son illərdə makroiqtisadi göstəricilər yüksələn xətt üzrə artmaqdadır. Belə ki, statistik məlumatlardan göründüyü kimi, 2012-ci ildə iqtisadi inkişafın əsas göstəricisi olan Ümumi Daxili Məhsul istehsalının həcmi 2 milyard ABŞ dollarını keçmişdir. Muxtar respublikada ÜDM istehsalı 2012-ci ildə 2011-ci ilə nisbətən 16,8 faiz artaraq 2 milyard 103 milyon 424 min manata çatmışdır. Cari ilin yanvar-oktyabr aylarında isə Naxçıvan Muxtar Respublikasında 1 milyard 768 milyon 736 min 600 manatlıq Ümumi Daxili Məhsul istehsal olunmuşdur. Bu da 2012-ci ilin yanvar-oktyabr ayları ilə müqayisədə 8,6 faiz çoxdur. 2013-cü ilin yanvar-oktyabr aylarında Naxçıvan Muxtar Respublikasında 725 milyon 161 min 800 manatlıq sənaye məhsulu istehsal edilmişdir ki, bu da 2012-ci ilin müvafiq dövründəki göstəricini 6,8 faiz üstələmişdir.

*Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi siyasətin muxtar respublikada müvəffəqiyyətlə həyata keçirilməsi regionun gələcək xoşbəxt və firavan həyatından xəbər verir.*

**Akif MƏDƏTOV**
***iqtisad üzrə fəlsəfə doktoru***

## Niderlandlı səfir muxtar respublikanın təhsil, mədəniyyət və istehsal müəssisələri ilə tanış olub



***Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Jan Qabrielse Naxçıvan Muxtar Respublikasına ikigünlük səfəri çərçivəsində muxtar respublikanın təhsil, mədəniyyət və istehsal müəssisələrində də olub.***

Dünən niderlandlı səfir Naxçıvan Dövlət Universitetinə gəlib, Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsindəki tədris və elmi-tədqiqatyönlü laboratoriyalarda, Botanika bağında, Geologiya, mineralogiya və yerşünaslıq, eləcə də Botanika və zoologiya muzeylərində olub. Səfir Beynəlxalq münasibətlər və xarici dillər fakültəsindəki Tərcümə-Tədris Mərkəzində tələbələrlə görüşüb, onların suallarını cavablandırıb.

Muxtar respublikanın qonağı Naxçıvan şəhərindəki bir neçə istehsal müəssisəsini də gəzib. Qonağın ilk baş çəkdiyi ünvan Naxçıvan Avtomobil Zavodu olub. Zavodda bu müəssisənin istehsal gücü, istehsal bazarı, ixrac imkanları haqqında səfirə ətraflı məlumat verilib. "Gəmiqaya Mineral Sular" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal sahələrinə baxış zamanı niderlandlı səfirə məlumat verilərək bildirilib ki, "Badamlı" təbii mineral suyunun mənbəyi Şahbuz rayonunun Badamlı kəndində, dəniz səviyyəsindən 1274 metr yüksəklikdə yerləşir. Badamlı Zavodu 1947-ci ildən Şahbuz rayonunda fəaliyyət göstərib. 1970-80-ci illərdə həmin müəssisə yenidən qurulduqdan sonra məhsulun 90 faizi respublikamızdan kənara göndərilirdi. 2004-cü ildə özəlləşdirilən müəssisə tədricən əvvəlki şöhrətini bərpa edib. "Gəmiqaya Mineral Sular" MMC müəssisəyə bazar iqtisadiyyatının tələblərinə uyğun yeni həyat verib. Naxçıvan şəhərində elmi-texniki tərəqqinin ən son nailiyyətləri əsasında yaradılmış yeni zavod yüksəkkeyfiyyətli məhsullar istehsal etməyə başlayıb.

Daha sonra niderlandlı səfir Nuh Peyğəmbərin məzarüstü türbəsini ziyarət edib, Naxçıvanqala abidəsi ilə tanış olub, bu ərazidəki kəhrizlərlə maraqlanıb.

Səfir ölkəmizin paytaxtı Bakıya qayıtmazdan öncə "Gəmiqaya Mebel Fabriki" MMC-də də olub. Səfirə məlumat verilərək bildirilib ki, daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin edən istehsal müəssisələrindən biri də "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisədə Almaniya, İtaliya və Türkiyə respublikalarından alınmış müasir texnoloji avadanlıqlar quraşdırılıb, müxtəlif çeşiddə məhsul istehsalı üçün geniş imkanlar yaradılıb. Burada ağac profilli qapı və pəncərələr, modern və klassik üslubda dizayn edilmiş mebellər, sosial və inzibati binalar üçün müxtəlif avadanlıqlar istehsal edilməklə yanaşı, dizayn-dekorasiya xidmətləri də göstərilir.

Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Robert Jan Qabrielsenin Naxçıvan Muxtar Respublikasına ikigünlük səfəri başa çatıb.

## Seminar-müşavirə keçirilib

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Ordubad Rayon İcra Hakimiyyətində "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının və notariat hərəkətlərinin aparılması zamanı qanunvericiliyin tələbləri" mövzusunda seminar-müşavirə keçirilib.***

Rayonun qəsəbə və kənd inzibati ərazi dairəsi üzrə nümayəndələrinin iştirak etdiyi tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Etibar İsmayılov açıb.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Təşkilat-nəzarət şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri Emin Səfərov çıxış edərək "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının və notariat hərəkətlərinin aparılması münasibətlərini tənzimləyən qanunvericilik" mövzusunda danışıb. Qeyd edilib ki, qanun üzrə hüquq və vəzifələrin meydana gəlməsi, dəyişdirilməsi, onlara xitam verilməsinə səbəb olan hadisələr və vətəndaşların hərəkətləri vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı vasitəsilə rəsmiləşdirilir. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) Qeydiyyat şöbələri öz səlahiyyətləri daxilində doğumun, nikahın bağlanmasının, nikahın pozulmasının, övladlığa götürmənin, atalığın müəyyən edilməsinin, adın, ata adının və soyadının dəyişdirilməsinin, ölümün qeydiyyatını aparır, vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatını dəyişir, tamamlayır, düzəldir və ləğv edir, itmiş qeydləri bərpa edir, akt kitablarını saxlayır və təkrar şəhadətnamələr verirlər. Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanına əsasən, rayon mərkəzindən kənarda yerləşən qəsəbə və kənd sakinləri üçün daha münasib şəraitin yaradılması məqsədilə nikahın, doğumun və ölümün dövlət qeydiyyatını rayon (şəhər) qeydiyyat şöbələri ilə yanaşı, rayon tabeli şəhərlərdə, qəsəbələrdə və kəndlərdə rayon, şəhər, şəhər rayonu icra hakimiyyətlərinin nümayəndəlikləri aparırlar.

Nazirliyin Qeydiyyat və notariat şöbəsinin notariat bölməsinin baş məsləhətçisi, kiçik ədliyyə müşaviri Səyyub Kərimov çıxışında bildirib ki, qeydiyyat və notariat sahəsində aparılan əməliyyatlar zamanı qanunvericiliyin tələblərinə əməl olunması, əhaliyə bu sahədə göstərilən xidmətin səviyyəsinin yüksəldilməsi, nöqsanlara yol verilməməsi, aparılan əməliyyatlar zamanı kargüzarlıq qaydaları ilə bağlı qanunvericiliyin tələblərinin gözlənilməsinin təmin edilməsi qarşıya qoyulan əsas vəzifələrdəndir.

Sonda iştirakçıları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Xəbərlər şöbəsi**



# Şərur müasir rayon mərkəzidir

***Az qalmışdı ki, Şərura çataq, şəhərin uzun illər bundan əvvəlki miskin görkəmi yadıma düşdü. Rayonun bu mənzərəsini yaxşı xatırlayıram. Əslən bu rayondan olduğum üçün yaşımın bu vədəsinə kimi hər həftə, hər ay Şərura getmişəm. Ona görə də Şərurun dünənini və bu gününü müqayisə etmək mənim üçün heç də çətin deyil.***

Ötən əsrin 90-cı illərinin əvvəllərində Şərurun şəhər olmağı yalnız adında idi. Nə yolları yol idi, nə də küçələri. Piyadalar üçün gediş-gəliş yollarını zəbt edən primitiv köşkləri, yöndəmsiz, köhnə tikililəri rayon sakinləri yaxşı xatırlayırlar. Kəskin şaxtalı-çovğunlu qışın gəlişi qayğıları daha da artırırdı. Uzun qış gecələri dözülməz olurdu. Bu saatlarda şəhər zülmətə bürünürdü. Heç yadımdan çıxmaz. Təxminən, 1994-cü il idi. Qonşuluqda yaşayan ailələrdən biri Naxçıvan şəhərinə köçürdü. Həmin gün valideynlərimizin etdiyi söhbəti indi də yaxşı xatırlayıram. Qonşu Tünzalə xala burada vəziyyətin dözülməz olduğunu, çörək pulu qazanmağın çətinliklərini və gün-güzəranlarının getdikcə pisləşdiyini ürəkağrısı ilə anama danışaraq tez-tez ah çəkirdi. O səhnəni yəqin ki, unuda bilməyəcəm. İndi hər dəfə o küçədən keçəndə istər-istəməz o evə tərəf boylanıram. Uşaqlıq xatirələrimin yaşadığı bu ünvanı bugünkü görkəmdə görəndə gözlərimə inanmıram. Sanki bu küçə elə bu gün gördüyüm kimi olub – uzun illər bundan əvvəl uçuq-sökük evin yerində, necə deyərlər, saray ucaldılıb. Tünzalə xalagil neçə illər əvvəl doğma Şərur torpağına qayıdaraq burada özlərinə yaxşı şərait yaradıblar.

Bu düşüncələrlə bir də baxdım ki, Şərur şəhərindəyik.

Şərurla bağlı uşaqlıq xatirələrimi bir-bir yada salaraq şəhəri gəzirəm. Bu dəfə heç kəslə danışmayacağımı qərara almışam. İstəyirəm ki, doğma şəhərimlə başbaşa verəm. Onun üçün də müsahibim elə Şərur şəhərinin özüdür. Şəhəri gəzirəm və gördüklərimi fotomüxbirimiz fotoaparatın yaddaşına köçürür. Ürəkaçan görüntülər bir deyil, beş deyil. Hara baxırsan, bir yenilik gözə dəyir. Payız fəslində isə Şərur şəhəri bir ayrı gözəlliyə bürünüb. Şəhərin təmizliyinə də söz ola bilməz.

Oğuz-türk yurdu bu gün regionun ən abad və yaraşıqlı yaşayış məskənlərindən birinə çevrilib. Tikilən, ərsəyə gətirilən obyektlərin əksəriyyəti son illərin ərmağanlarıdır. Ancaq onu da mütləq vurğulamalıyam və hər bir şərurlu da təsdiq edər ki, bu gün qurulanlar, ərsəyə gətirilənlər, insanların ixtiyarına verilənlər elə-belə başa gəlməyib. Zəhmət çəkilib, tər tökülüb, yollar axtarılıb. Çəkilən zəhmət isə Şərurda öz bəhrəsini verib.

Yadıma xalqımızın ümummilli lideri Heydər Əliyevin Şərur, onun işgüzar sakinləri barəsində söylədiyi fikirlər düşür: ***"Şərur rayonunun imkanları böyükdür. Burada yaxşı torpaqlar var, çox fədakar insanlar var"***, – deyən müdrik rəhbər rayon sakinləri ilə görüşündə onlara öz tövsiyə və tapşırıqlarını da verib: ***"Arzu edirəm ki, Şəruru daha da abadlaşdırasınız, gözəlləşdirəsiniz və iqtisadiyyatınızı daha da inkişaf etdirəsiniz".***

Sakinlər ulu öndərin bu tapşırıqlarını layiqincə yerinə yetirməyə çalışırlar. Regionların sosial-iqtisadi inkişafı dövlət proqramı çərçivəsində həyata keçirilən tədbirlər diqqəti daha çox cəlb edir. Rayonda bir sıra infrastruktur layihələri həyata keçirilib, onlarla müasir bina inşa olunub. Demək olar ki, rayonun bütün idarə, müəssisə və təşkilatları belə binalarda fəaliyyət göstərir. Bu isə torpaq qədri bilən, yurd təəssüblü şərurlulara yüksək səviyyədə xidmət etməyə imkan verib.

Şərur şəhərində diqqəti çəkən ünvanlardan biri ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan prospektdir. Prospekt abadlığı, səliqə-sahmanı, gülzarlıqları ilə seçilir. Bu isə, ilk növbədə, şərurluların ulu öndərin adı ilə bağlı ünvanı daha gözəl, yaraşıqlı görmək, fərqləndirmək istəyindən qaynaqlanır. Axı hər yerdə olduğu kimi, bu rayonda da insanlar yaxşı dərk edirlər ki, bu xoş günləri, əmin-amanlığı bizə məhz ulu öndərimiz bəxş edib. Bugünkü günlərin təməli ümummilli liderimiz tərəfindən qoyulub.

Bir məsələni xüsusilə diqqətə çatdırmaq istəyirəm. Hər dəfə Şərur şəhərinə üz tutanda burada böyük müxtəliftəyinatlı obyektlərin tikintisinin şahidi oluruq. Yeni ucaldılan yaraşıqlı tikililər, müasir görkəmə salınan yaşayış binaları, parklar göz oxşayır, qəlbi riqqətə gətirir. Əlbəttə, bütün bunlar sadə görüntü, yaxud bəsit məntiqin nəticəsi kimi yozulmamalıdır. Bütövlükdə muxtar respublikamıza xas olan quruculuq, abadlıq ab-havasının bu rayon mərkəzində yaratdığı füsunkarlığın arxasında böyük məna dayanır. Sal daşlar döşənmiş səkilər, bir-birindən yaraşıqlı, müasir binalar, onların ətraflarını bəzəyən çiçəklər, gülzarlıqlar, parklar, xiyabanlar gözəllik mahiyyəti kəsb etməklə yanaşı, sağlam mənəvi atmosferi, əhalinin rahatlığını, həmçinin şərurluların qurub-yaratmaq əzmini də göstərir.

Azərbaycan ədəbiyyatının böyük simalarından olan Nizaminin və Sabirin adını daşıyan ünvanları da gəzdim. O ünvanları ki, bir vaxtlar az qala yaddan çıxmış, gözdənuzaq, könüldəniraq düşmüşdülər. Həmin



küçələrdə elə böyük abadlıq-quruculuq işləri aparılıb ki, sözlə təsvir etmək çətindir.

Bu anda nəzərimi şəhərdə gördüyüm səliqəli məktəbli forması geyinmiş şagirdlər və müəllimlər cəlb edir. Şərur şəhərində iki tam orta məktəb fəaliyyət göstərir. Hər iki təhsil ocağına muxtar respublikada aparılan abadlıq, quruculuq işlərindən pay düşüb. Məktəblərin binaları yenidən qurulub, maddi-texniki bazaları gücləndirilib. Bu, təhsil ocaqlarında tədrisin səviyyəsinin yüksəldilməsinə müsbət təsir göstərib. Elə ötən tədris ilinin nəticələrinə baxsaq, gəldiyimiz qənaətin doğruluğunu görərik. Bu il şəhər tam orta məktəbləri üzrə ali məktəblərə sənəd verən 75 abituriyentdən 44 nəfəri tələbə adını qazanıb. Onlardan 12-si 500-dən yuxarı bal toplayıb. Şərur şəhər 2 nömrəli tam orta məktəbin məzunu Müşfiqə Əsgərova 690 bal toplayaraq Prezident təqaüdünə layiq görülüb.

Ölkə Prezidenti cənab İlham Əliyev 2007-ci ilin oktyabr ayında Naxçıvana səfəri zamanı rayon mərkəzində inşa olunmuş xəstəxana şəhərciyi kompleksinin açılış mərasimində iştirak edərkən burada görülən işləri, həyata keçirilən tədbirləri yüksək qiymətləndirib: ***"Çox şadam ki, Şərurda belə gözəl səhiyyə ocağı tikilib istifadəyə verilibdir. Mən xəstəxana ilə indi tanış oldum, gördüm ki, sözün əsl mənasında, bütün dünyada mövcud olan yüksək standartlara cavab verən bir tibb ocağıdır. Belə gözəl xəstəxanalar inkişaf etmiş ölkələrin böyük şəhərlərində də tikilmir".***

**Şərur şəhərindən ayrılanda nahar vaxtı idi. Müxtəlif idarə, təşkilat və müəssisələrdə çalışanların bir qismi nahar üçün evlərinə tələsirdi. Onların üzlərinə baxdım. Təbəssümlü baxışları çox mətləblərdən xəbər verirdi. Hiss etmək çətin deyildi ki, onlar Şərurun bu günü ilə qürur hissi keçirirlər. Həmin gün görüb, şahidi olduğum hər bir şey – abad yol, yaraşıqlı məktəb binaları, gözoxşayan olimpiya-idman kompleksi mənə röya görürmüş kimi gəlirdi. Amma bütün bunlar yuxu deyil, gerçəklik, obrazlı desəm, müstəqillik Günəşinin yaşı qədim, özü yeni qurulan bir yurd yerinə saçdığı şəfəqin ziyasında parlayan quruculuq ərməğanları, müasir günlərimizin reallığı idi.**

**Sara ƏZİMOVA**

# "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi məhsullara tələbat artır

Muxtar respublikada həyata keçirilən iqtisadi siyasətin əsas məqsədlərindən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsidir. Bunun üçün daxili bazarın tələbatına uyğun yerli məhsul istehsal edən müəssisələrin yaradılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Məhz həmin tədbirlərin nəticəsidir ki, bazar iqtisadiyyatının tələblərinə uyğun rəqabətqabiliyyətli müəssisələr yaradılır. Belə müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətidir.

Dövlət maliyyə dəstəyi ilə müəssisədə 2003-cü ildə çörək, 2004-cü ildə makaron, peçenye və kolbasa, 2005-ci ildə isə süd məhsulları istehsalı sahələri yaradılmışdır. Bu istehsal sahələrində Almaniya, Türkiyə və İtaliya istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılmışdır. Müəssisənin fəaliyyətinin genişləndirilməsi, müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla istehsal gücünün artırılması, yeni istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi məqsədilə Sahibkarlığa Kömək Fondundan 2008-ci ildə əlavə dövlət maliyyə dəstəyi göstərilmişdir. Bu vəsaitlə inzibati binada və yeməkxanada əsaslı təmir işləri aparılmış, müəssisə müasir avadanlıqlarla təmin edilmişdir. Eyni zamanda çörək sexində istehsal gücü saatda 3000 ədəd çörək olan tam avtomatik yeni xətt istifadəyə verilmişdir. Burada çörək dəmir üzərində deyil, daş üzərində bişirilir ki, bu da məhsulun daha keyfiyyətli istehsalı deməkdir. Daxili bazarın yüksəkkeyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına öz töhfəsini verən "Gəmiqaya Bərəkət Qida Məhsulları" MMC-də istehsal sahələri ilbəil genişləndirilir. Bu istiqamətdə işlər uğurla davam etdirilmiş, 2011-ci ildə Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar tətbiq olunmaqla Şərq şirniyyatları istehsalı sahəsi fəaliyyətə başlamışdır.



Müəssisədə istehsal olunan məhsullar alıcılar tərəfindən rəğbətlə qarşılanır. Makaron sexində istehsal edilən müxtəlif növdə keyfiyyətli makaron 350, 500 qramlıq, 10 kiloqramlıq kisələrdə, Şərq şirniyyatları istehsalı sexində hazırlanan Azərbaycan milli şirniyyatları – şəkərbura, Ordubad və Şəki paxlavaları, müxtəlif çeşidlərdə qurabiyə, qat-qat, şəkərçörək, milli şirin çörək, biskvit və digər unlu-qənnadı məmulatları nəfis tərtibatla bəzədilmiş taralarda satışa çıxarılır.

Fermer və fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən xammal şəklində alınan ət və süd məhsulları xüsusi maşınlarla müəssisəyə daşınıb laborator analizdən keçirildikdən sonra istehsalata buraxılır. Ətdən bir neçə növ kolbasa, süddən isə kərə yağı, pendir, qatıq və ayran istehsal olunur. Ayran 200, kərə yağı 250, 400 qramlıq, 1 və 4 kiloqramlıq, pendir isə 0,5, 1 kiloqramlıq plastik və 17 kiloqramlıq dəmir taralarda qablaşdırılır.

Sanitar-gigiyenik qaydalara ciddi əməl olunduğu müəssisədə müasir avadanlıqlarla təchiz olunmuş iki laboratoriya fəaliyyət göstərir. Müəssisəyə daxil olan xammal və ya hazır məhsul həmin laboratoriyada analizdən keçirildikdən sonra istehsala buraxılır və ya satışa çıxarılır.

İldən-ilə fəaliyyəti genişləndirilən müəssisədə çörək sexi 3, digər sexlər isə birnövbəli iş rejimində fəaliyyət göstərir. Burada 174 nəfər çalışır.

Gələcəkdə müəssisədə istehsal olunan məhsulların Azərbaycanın digər regionlarında və xarici bazarlarda satışa çıxarılması nəzərdə tutulur. Bu məqsədlə kompleks tədbirlər həyata keçirilir.

"Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətində bütün istehsal prosesi İSO keyfiyyəti idarəetmə sisteminin və qida təhlükəsizliyinin tələblərinə tam uyğun şəkildə təşkil edildiyi üçün müəssisə İSO 9001-2008 və İSO 22000 sertifikatına uyğunluğu təsdiq olunaraq sertifikatlaşdırılmışdır. Bu, yerli ərzaq məhsullarının keyfiyyətli istehsalının göstəricisi və xarici bazara çıxışının təminatı deməkdir.

Ayrı-ayrı ticarət obyektlərində alıcı və satıcıların bu yerli məhsullara olan münasibətini öyrəndik. Fərdi sahibkar Anar Kərimov: "Əvvəllər alıcılar xaricdə istehsal olunan ərzaq və qeyri-ərzaq məhsullarına üstünlük verirdisə, indi artıq muxtar respublikada istehsal olunan məhsullara üstünlük verilir. Yerli istehsal müəssisələri alıcıların rəğbətini qazanan keyfiyyətli məhsullar istehsal edərək rəqabətqabiliyyətli müəssisələrə çevrilmişlər".

İstehlakçı Nazilə Bayramova: "Pensiyaçıyam. "Gəmiqaya Bərəkət Qida"nın istehsal etdiyi Şərq şirniyyatları, kərə yağı, qatıq, ayran, makaron məhsullarının daimi alıcısıyam. Dadı, tamı ilə seçilən yerli məhsullar vaxtlı-vaxtında mağazalara çatdırılır".

Fərdi sahibkar Akif Əsədov: "Heyvandarlıqla məşğul olan sahibkar kimi onu deyə bilərəm ki, son illər muxtar respublikamıza alınıb gətirilən və lizinq yolu ilə sahibkarlara verilən məhsuldar cins mal-qara ət və süd istehsalının artımına səbəb olmuşdur. Təbii ki, ət və südün emal olunması üçün yaradılmış müəssisələr sahibkarları alıcı problemi ilə üzləşdirmir. Yəni sahibkarın şəxsi istifadəsindən artıq olan ət və süd "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin tədarükçüləri tərəfindən gündəlik qəbul edilir. Bu həm istehsalçı, həm də istehlakçı üçün sərfəlidir".

**Kərəm HƏSƏNOV**

## “Nuh yurdu” intellektual oyununun zona birinciliyi keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə “Nuh yurdu” intellektual oyununun yeniyetmələr arasında Naxçıvan Muxtar Respublikası üzrə zona birinciliyi keçirilib. 18 komandanın iştirakı ilə keçirilən intellekt yarışında muxtar respublikanın hər rayonundan 2, Naxçıvan şəhərindən isə 4 komanda biliyini nümayiş etdirib. Bu mərhələnin iştirakçıları cari ilin sentyabr və oktyabr aylarında keçirilən rayon birinciliklərində yer tutaraq zona yarışlarına vəsiqə qazanmış yeniyetmələrdir.

Yarışda ilk 3 pilləyə yüksəlmiş Ordubad rayonunun “Günəş”, Naxçıvan şəhərinin “Şəfəq”, Culfa rayonunun “Culfa” komandaları daha bir mötəbər turnirə vəsiqə qazanıblar. “Xəmsə” milli intellektual oyununun yeniyetmələr arasında 3-cü Azərbaycan çempionatında iştirak etmək hüququ qazanan bu yeniyetmələr Naxçıvanı təmsil edəcəklər.

Qeyd edək ki, adıçəkilən bu intellekt yarışı dekabr ayında Naxçıvanda keçiriləcək. Yarışda ölkənin 32 bilikli komandası birincilik uğrunda mübarizə aparacaq.

Ceyhun MƏMMƏDOV

## Əllə yaradılan möcüzələr sərgisi

*Ağac üzərində oyma sənəti ilə məşğul olanlar deyirlər ki, bu təbiət abidəsi kimi mülayim, həssas, səxavətli, “sözəbaxan” digər material yoxdur. Bu sənət növünə ömrünü həsr edənlər üçün ağac həm də bənzərsiz, həmişəyaşar materialdır. Ona görə ki, bir sənətkarın əlində tutduğu ağac parçasının qismətinə sobada yanmaq və ya kağız parçasına çevrilmək yox, böyük sərgilərdə nümayiş olunmaq, qiymətli bir nümunə kimi birinə hədiyyə edilmək düşüb. Ağacla təmasda olanda onun bütün müsbət enerjisi insana keçir. Ağac istidir, nəfəs alır, canlıdır. Onun üzərindəki illərin buraxdığı izlərdən belə, naxış kimi istifadə etmək olar. Əsas odur ki, bu incəlikləri görüb tətbiq etməyi bacarasan.*



Təbiət ən yaxşı sənətkardır, – deyirlər. Çünki əlində düzələn cansız daş parçası da, yamyaşıl, naxış-naxış yarpaqlardan süzülüb düşən bir yağış damlası da, bir ağac parçası da ustalıqla, incəliklə işlənib hazırlanıb. Dünən Naxçıvan Biznes Mərkəzində təşkil edilən sərgi də məhz bu incəliklərdən sənət naminə ustalıqla istifadə etməyi bacaran bir xalq sənətkarının, ağacoyma ustası Akif Həsənovun sənətsevərlər qarşısında, bir növ, yaradıcılıq hesabatı idi. Sərginin açılışına Akif ustanın sənət dostları, rəssamlar, heykəltəraşlar, musiqiçilər, ədəbiyyatşünaslar, teatrşünaslar, bir sözlə, ictimaiyyətin sənətlə daha yaxın olan nümayəndələri toplaşmışdı.

Tədbirdə “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Vüqar Səfərovun, Azərbaycan Respublikasının əməkdar rəssamı, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, “Yeni Era” Dünya Rəssamlıq Akademiyasının həqiqi üzvü Ülviyyə Həmzəyevanın çıxışları oldu. Çıxışlarda qeyd edildi ki, qədim Naxçıvan torpağında yayılmış el sənəti böyük və zəngin bir tarixi mərhələni, mədəni inkişaf dövrünü əhatə etməklə dövlətimizin diqqət və qayğısı ilə bu gün də yaşayır, inkişaf edir. Qədim sivilizasiyaya və müasir mədəni inkişafa layiqli töhfə olan bu sənət növləri xalqımıza xas milli xüsusiyyətləri və xarakteri, adət-ənənələri, həyat və məişət tərzini özündə cəmləşdirir. Qədim sənət növlərindən biri də ağacoymadır. Akif Həsənovun yüksək ustalıqla işlədiyi əl işlərindən ibarət sərgi bir daha göstərir ki, digər xalq sənəti nümunələri kimi, ağacoyma sənəti də inkişaf edir, gələcək nəslə ötürülür.

Sonra sərgiyə baxış olub. Hər naxışında Naxçıvan koloritinin açıq-aşkar hiss olunduğu, tükənməz istedadın, böyük səbrin, yaradıcı düşüncənin məhsulu olan əl işləri tamaşaçılarda böyük maraq oyadıb.

Səbuhi HÜSEYNOV

*Yeni nəşrlər*

## Ailə kiçik dövlətdir

### *Qısqanclıq bu dövləti dağıtmağa çalışan zəlzələdir*

***Hər hansı elmi və ya bədii əsər cəmiyyətin inkişafına, elmi nəticələrin insan həyatının yaxşılaşmasına, iqtisadi və ya mənəvi inkişafına az da olmuş olsa, kömək edirsə, insanların həyatını dərk etməsinə istiqamət verirsə, o əsər təqdirəlayiqdir.***




Son dövrlər professor Oruc Həsənlinin bir-birinin ardınca çap etdirdiyi əsərlər öz elmi və bədii dəyərinə görə cəmiyyətə xidmət edən əsərlərdəndir. Onun artıq oxucu marağına səbəb olan “Sirli dünya: məhəbbət” əsərinin ardınca bu günlərdə “Sirli dünya: qısqanclıq” kitabı işıq üzü görmüşdür. Kitabın oxucuda oyatdığı ilk təəssürat nədən ibarətdir? Nəyə görə “Sirli dünya?”

Müəllif “Sirli dünya: qısqanclıq” əsərində araşdırılması vacib olan bir psixoloji hadisəyə – qısqanclıq probleminə münasibət bildirməklə həyatda baş verən bir çox xoşagəlməz hadisələrin sonunda “Niyə belə oldu?” sualının cavabının məhz yersiz və əndazədən artıq qısqanclıq olduğunu diqqətə çatdırır. O göstərir ki, “canlı aləmdə müəyyən qrup törəmələrin xarici təsirlərə, cismani dəyişmələrə cavabvermə qabiliyyəti mövcuddur ki, buna “qısqanclıq” deyilir. Qısqanclıq geniş anlayışdır. Bu təkcə qarşı cinslərin bir-birinə qarşı münasibətlərindən doğan bir dəyər deyildir. Eyni zamanda insanların bir-birinin həyat tərzinə, münasibətinə, dostluğuna, düşmənçiliyinə və sair münasibətlərinə təsir edən bir dəyərdir”.

Kitabda psixoloji hadisə olan qısqanclıq müxtəlif istiqamətlərdən, müxtəlif aspektdən araşdırılmışdır. Kitabın “Qısqanclığın davranışdakı qabarıq təzahür formaları”, “Qısqanclığı yaradan əsas səbəblər”, “Bütün hisslərdən üstün qısqanclıq”, “Ailədə qısqanclıq”, “İslam dini və qısqanclıq”, “Qısqanclığın sağlamlığa təsiri”, “Qısqanclıq dostumuzdur, yoxsa düşmənimiz?” və sair bölmələrində müəllif gündəlik həyatda baş verən qısqanclıq hadisələrinə psixoloji baxımdan yanaşmış, qısqanclığı həyat həqiqətlərinə yanlış münasibətin forması kimi təqdim etmişdir.

Müəllif “qısqanclığın təyini testi” bölməsində və sonrakı bölmələrdə qısqanclığı doğuran səbəbləri və bu səbəblərin aradan qaldırılması yolları ilə bağlı sorğuların keçirilməsini, test tapşırıqlarının cavablandırılmasında əldə olunan nəticələrin göz önünə alınmasının vacibliyini bildirir.

Professor Oruc Həsənli kitabda daha çox qısqanclığı doğuran səbəblərə və onun aradan qaldırılmasında tərəflərin – ərlə arvadın, nişanlı oğlanla qızın, yenicə tanış olmuş, lakin hələ aralarındakı bağlılığın sevgiyə, məhəbbətə çevrilmədiyi bir dövrdə insanların mövqelərinin təyin olunması məsələsinə və qısqanclığın törədə biləcəyi fəsadlara toxunur, bu haqda geniş izah verir. Kitabda daha çox “sədaqətsizlik”, “vəfasızlıq” kimi ifadələrin işlədilməsinin törətdiyi acı nəticələr həyati misallarla izah olunur, “inam”, “etibar” kimi ifadələrin beyinlərə həkk olunmasının vacibliyi qeyd edilir.

Ümumilikdə, “Sirli dünya: qısqanclıq” kitabı müəllifin qeyd etdiyi kimi: “Bugünkü ailə və cəmiyyət, sosial mühit, ailə və uşaq tərbiyəsi, cəmiyyət və gənclərin probleminin, bəzən isə əsassız qısqanclıq hisslərinin fəsad verməsi, onların araşdırılması, düzgün yollarının üzə çıxarılması zərurətindən yazılmışdır”.

Bu kitab valideynlər, tərbiyəçilər, məktəb psixoloqları, hər bir ailə üzvü və yeniyetmələr, ələlxüsus gənc ailələr üçün çox faydalı ola bilər.

Həsənəli EYVAZLI
*filologiya üzrə fəlsəfə doktoru*

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində növbəti angioqrafiya əməliyyatları aparılmışdır

***Muxtar respublikamızda ürək xəstəliklərinin müasir müayinə və profilaktikası məqsədilə invaziv kardiologiyanın inkişaf etdirilməsi səhiyyə sistemi qarşısında prioritet məsələ kimi durur. Bu sahədə tibbi xidməti daha da yaxşılaşdırmaq, xüsusən az təminatlı ailələrdən olan xəstələrin muxtar respublikadan kənara getmədən müayinəsinin təşkili məqsədilə bir sıra mühüm işlər görülmüş, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi və digər səhiyyə müəssisələrinin müasir tibbi avadanlıq və cihazlarla təchizatına ciddi diqqət yetirilmişdir.***

Bu isə sosial layihələr çərçivəsində yüksəkixtisaslı həkim heyəti tərəfindən təkcə cari ilin ilk 9 ayında 159 cərrahi əməliyyat, o cümlədən 28 nəfər xəstədə açıq ürək, 5 nəfər xəstədə periferik damar, 71 xəstədə göz və 55 nəfər xəstədə digər müxtəlif əməliyyatlar aparılmasına, 16 nəfər xəstənin ürək damarlarına stent qoyulmasına imkan vermişdir. Muxtar respublikamıza dəvət olunaraq bir sıra çətin əməliyyatlar həyata keçirən Mərkəzi Neftçilər Xəstəxanasının yüksəkixtisaslı həkim briqadaları tərəfindən 2007-ci ildən indiyədək 600-dən çox xəstə üzərində angioqrafiya əməliyyatı aparılmışdır.

Növbəti əməliyyatlar Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin dəvəti ilə Mərkəzi Neftçilər Xəstəxanası İntervension kardiologiya bölməsinin müdiri, kardioloq-həkim, tibb üzrə fəlsəfə doktoru Abbasəli Abbasəliyev tərəfindən həyata keçirilmişdir. Diaqnostika-Müalicə Mərkəzinin həkimləri əvvəlcədən angioqraf müayinəsi apardıqdan və stent müalicəsinə ehtiyacı olan xəstələri müəyyənləşdirdikdən sonra bu təcrübəli mütəxəssisin iştirakı ilə 26 xəstə üzərində ilkin angioqrafiya müayinəsi aparılmış, 13 nəfərin koronar arteriyalarında balon angioplastikası və stentin yerləşdirilməsi əməliyyatı həyata keçirilmişdir.

Qeyd edək ki, koronarangioqrafiya ürəyin tac damarlarını müayinə etmək üçün ən informativ bir üsuldur. Bu üsul ürəyin tac damarlarının vəziyyəti haqqında geniş məlumat verir. Müayinə prosesində sağ və ya sol bud arteriyasından nazik tel (kateter) salınaraq ürəyin tac damarına qədər yeridilir. Sonra kontrast maddə vurularaq ürəyin tac damarlarının şüa müayinəsi aparılır. Ürəyin damarları haqqında dəqiq məlumat toplandıqdan sonra müəyyən nəticəyə gəlinir; xəstəyə stent qoyulmasına, yaxud kardiocərrahi əməliyyata, dərman müalicəsinə qərar verilir. Bu prosesin həyata keçirilməsi üçün Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində Angioqrafiya bölməsi fəaliyyət göstərir. Bölmədə fəaliyyət göstərən həkim və orta tibb işçiləri Bakı şəhərində, Türkiyə Respublikasının tanınmış səhiyyə müəssisələrində təkmilləşdirmə kurslarında olmuş, müasir müayinə metodlarına yiyələnmişlər. Diaqnostik müayinə və cərrahi müdaxilələrin aparılmasında naxçıvanlı həkimlərin də yaxından iştirak etməsi onların peşə vərdişi və təcrübə qazanmasında, bu sahədə müstəqil şəkildə fəaliyyət göstərməsində xüsusi əhəmiyyət kəsb edir. Artıq bir çox sahələrdə diaqnostik müayinə və müalicələr yerli mütəxəssislər tərəfindən aparılır.

Hazırda Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində aparılan angioqrafiya əməliyyatlarında Abbasəli Abbasəliyevlə yanaşı, naxçıvanlı kardioloq-həkimlər Süleyman Cəfərov və Nail Mehbalıyev də bilavasitə iştirak edirlər. Yardımçı işlər isə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin bilavasitə öz kadrları tərəfindən həyata keçirilir.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti*

## Yoldaşlıq görüşündə “Naxçıvan” komandası qələbə qazandı

Dünən Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının təşkilatçılığı ilə “Naxçıvan” və “Culfa” basketbol komandalarının yoldaşlıq görüşü keçirilib. Oyun başlamazdan öncə çıxış edən Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyasının sədr müavini Ənvər Məmmədov son zamanlar muxtar respublikada bu idman növünə artan maraqdan danışıb, belə yarışların bundan sonra da keçiriləcəyini bildirib.



Sonra qarşılaşmaya start verilib. Gərgin oyun şəraitində keçən qarşılaşma “Naxçıvan” komandasının 51:32 hesablı qələbəsi ilə başa çatıb.

Sonda oyunda fərqlənən idmançılara Basketbol Federasiyasının fəxri fərmanı və hədiyyələr təqdim edilib.

Xəbərlər şöbəsi

### Bildiriş

İran İslam Respublikasının Livandakı səfirliyi qarşısında baş vermiş terror aktı nəticəsində həlak olan diplomatların xatirəsi anılacaqdır. Bununla əlaqədar 2013-cü il noyabrın 27-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunda anım dəftəri qoyulacaqdır.

*İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu*

### *Allah rəhmət eləsin*

Naxçıvan Musiqi Kollecinin direktoru Yusif Babayev və kollecin kollektivi iş yoldaşları Nəzakət Fərziyevaya, qardaşı
**FƏRZALİNIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1071